# Muğam Mərkəzində duyğulu bir axşam...



**O axşam işıqlı qəmlə süslənmiş "Bayatı Qacar" pərdə-pərdə ürəklərə nüfuz edir, fani dünyanın yalnız şənliklərdən ibarət olmadığını anladırdı. Digər muğamlar səsləndikcə yadımıza Seyid Əzim Şirvaninin beytini saldı:**

***Ələ aldı qavalı ol düxtər,***
***Oxudu çəm-xəm ilə bir "Şüştər"...***

Bəli, fevralın 17-də Beynəlxalq Muğam Mərkəzində "Muğam axşamları" layihəsinin növbəti konserti dinləyicilərə belə poetik ruh aşıladı. Şair olan yetərincə duyğulandı, rəssam olan rənglərin ahəngində vurnuxdu, sevgisindən yarımayan kövrəldi, bir sözlə, hər kəs öz nəsibini aldı.

Musiqi gecəsində sözügedən muğamlarını BMM-nin solistləri Əməkdar artist Sevinc Sarıyeva, xanəndələr Rəvanə Qurbanova, Nisbət Sədrayeva və Məmməd Nəcəfov təqdim etdilər. Qəlbəyatımlı səs sahiblərini tarzən Rövşən Qurbanov, kamança ifaçısı Ceyhun Bayramov, kanon ifaçısı, Əməkdar artist Təranə Əliyeva, nağaraçı Amil Mustafayev, ud ifaçısı Vasif Yusibli layiqincə müşayiət etdilər.

Tanınmış xanəndə Qəzənfər Abbasov "Şüştər" muğamını xüsusi məharətlə ifa edən tələbəsi Sevinc Sarıyevanı və Rəvanə Qurbanovanı muğam səhnəsində özünəməxsus şəkildə təbrik edərək bu klassik ladda bir zamanlar özünün də oxuduğunu xatırladı: "Bu muğam nadir hallarda ifa olunur. Məşədi Məmməd, Cabbar Qaryağdıoğlu və digər muğam biliciləri "Şüştər"in möhürünü vurublar. 80-ci illərdə isə dünyasını dəyişən görkəmli muğam ifaçılarımız – Hacıbaba Hüseynov, Canəli Əkbərov, daha sonra isə Alim Qasımov "Şüştər"ə yeni nəfəs veriblər. Bugünkü ifalar da gözəl idi".

Beynəlxalq Muğam Mərkəzi Azərbaycan milli musiqisinin təbliğinə həsr olunmuş bir neçə layihə həyata keçirir ki, onlardan biri də haqqında danışdığımız "Muğam axşamları" layihəsidir. Layihənin rəhbəri BMM-in direktoru, Xalq artisti Murad Hüseynovdur. Muğam sənətimizin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədilə reallaşan layihəyə tamaşaçılar böyük maraq göstərir. "Muğam axşamları" layihəsi 2017-ci ildən həyata keçirilir.

**Fidan HÜQUQQIZI,**
**Elşən AĞALAR (foto),**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 19 fevral.- S.8.